*Elmi Tədqiqat* Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 5 Sayı: 8 / 9-13 ISSN: 3104-4670
*Scientific Research* International Scientific Journal. 2025 / Volume: 5 Issue: 8 / 9-13 e-ISSN: 2789-6919

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

DOI: https://doi.org/10.36719/2789-6919/48/9-13

**Sani Hacıyev**
Bakı Dövlət Universiteti
tarix elmləri doktoru
https://orcid.org/0000-0002-8069-086X
sanihadjiyev@bsu.edu.az

# Müasir dövrdə Türkiyənin Asiya və Afrika ölkələri ilə əlaqələrində regional və beynəlxalq təşkilatların rolu

### Xülasə

Müasir dövrdə beynəlxalq münasibətlər sistemində çoxqütblülüyün güclənməsi, qloballaşmanın yeni mərhələyə qədəm qoyması və regional aktorların rolunun artması, dövlətlərin xarici siyasət prioritetlərini yenidən formalaşdırmasına səbəb olmuşdur. Türkiyə Respublikası da geosiyasi mövqeyi, tarixi-mədəni bağları və iqtisadi potensialı əsasında Asiya və Afrika ölkələri ilə əlaqələrini strateji istiqamətə çevirmişdir. Xüsusilə beynəlxalq və regional təşkilatlarda fəal iştirak, bu münasibətlərin institusional xarakter qazanmasına, siyasi, iqtisadi və humanitar əməkdaşlığın dərinləşməsinə imkan verir.

Araşdırmada Türkiyənin Asiya Əməkdaşlıq Dialoqu, D-8, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı və ASEAN-la əməkdaşlıq formatları, həmçinin Afrika İttifaqı, Qərbi Afrika İqtisadi Şurası və Şərqi Afrika Şurası çərçivəsində fəaliyyəti təhlil olunur. Belə bir nəticəyə gəlinir ki, regional və beynəlxalq təşkilatlar Türkiyənin çoxvektorlu xarici siyasətində mühüm rol oynayır. Bu model, ölkənin Asiya və Afrika bölgələrində uzunmüddətli və davamlı aktor kimi mövqeyini möhkəmləndirməklə yanaşı, qlobal səviyyədə təsir imkanlarını da genişləndirir.

***Açar sözlər:*** *Türkiyə Respublikası, Asiya, Afrika, diplomatiya, regional təşkilatlar, beynəlxalq təşkilatlar, perspektivlər*

**Sani Hajiyev**
Baku State University
Doctor of History
https://orcid.org/0000-0002-8069-086X
sanihadjiyev@bsu.edu.az

# The Role of Regional and InternatIonal Organizations in Turkey's Relations with Asian and Afriucan Countries in the Contemporary Era

### Abstract

In the contemporary international system, the consolidation of multipolarity, the advancement of globalization into a new phase and the growing influence of regional actors have compelled states to recalibrate their foreign policy priorities. Leveraging its geopolitical position, historical and cultural ties, and economic potential, the Republic of Turkey has strategically oriented its relations toward Asian and African countries. Active engagement in regional and international organizations has been instrumental in institutionalizing these relations and fostering deeper political, economic and humanitarian cooperation.

This study examines Turkey's involvement in key multilateral frameworks, including the Asia Cooperation Dialogue, the D-8 Organization for Economic Cooperation, the Economic Cooperation Organization, the Organization of Islamic Cooperation, the Organization of Turkic States, and ASEAN, as well as the African Union, the Economic Community of West African States (ECOWAS) and the East African Community. The analysis demonstrates that such platforms serve as strategic instruments within Turkey's multi-vector foreign policy, enabling the country to consolidate its long-term and sustainable role in Asia and Africa while enhancing its influence in the global arena.

***Keywords:*** *the Republic of Turkey, Asia, Africa, diplomacy, regional organizations, international organizations, perspectives*

## Giriş

"Soyuq müharibə" başa çatdıqdan sonra beynəlxalq münasibətlər sistemində kardinal dəyişikliklər, o cümlədən qloballaşmanın yeni mərhələyə daxil olması, beynəlxalq güc mərkəzlərinin çoxqütblü strukturda yenidən formalaşması və regional aktorların rolunun artması müşahidə edilmişdir. Beynəlxalq təşkilatların öz əhəmiyyətini saxlaması ilə yanaşı, regional siyasətin fəallaşması fonunda regional təşkilatların daha aktiv hala gəlməsi də bu dəyişikliklər içərisində yer almaqdadır. Bu səbəbdən də, son iki onillikdə böyük dövlətlərin öz xarici siyasət strategiyalarını daha çevik, çoxistiqamətli və regional əməkdaşlığa yönəlik hala gətirdiklərini qeyd edə bilərik.

Bəhs edilən kontekstdə Türkiyə Respublikası da öz geosiyasi mövqeyinin, tarixi və mədəni əlaqələrinin təməlində siyasi, iqtisadi və diplomatik əlaqələrini genişləndirmək yolunu tutmuşdur. Xüsusilə Asiya və Afrika ölkələri ilə münasibətlərin intensivləşdirilməsi Türkiyənin xarici siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Bu əlaqələrin gücləndirilməsində beynəlxalq və regional təşkilatlarda iştirak böyük əhəmiyyət kəsb edir. Bu təşkilatlar yalnız çoxtərəfli əməkdaşlıq müstəvisini təmin etməklə kifayətlənmir, həm də Türkiyəyə bu bölgələrlə siyasi, iqtisadi və humanitar baxımdan daha sistemli və institusional münasibətlər qurmaq imkanı verir.

Qeyd edək ki, məqalədə nəzərdən keçirəcəyimiz beynəlxalq və regional platformalar eyni zamanda Türkiyənin Asiya və Afrika ölkələri ilə qarşılıqlı etimada əsaslanan münasibətlər qurmasına, eləcə də regional təhlükəsizliyin təminatçısı kimi çıxış etməsinə imkan verir. Bundan əlavə, enerji təhlükəsizliyi, nəqliyyat və logistika imkanlarının genişləndirilməsi, ticarət həcminin artırılması və yeni bazarlara çıxış kimi faktorlar, Türkiyənin regional təşkilatlar çərçivəsində daha fəal iştirak etməsinə zəmin yaradır.

Hazırkı məqalənin əsas məqsədi – müasir dövrdə Türkiyənin Asiya və Afrika ölkələri ilə qurduğu əlaqələrin təhlilini vermək, bu əlaqələrin inkişafında beynəlxalq və regional təşkilatların rolunu və perspektivlərini göstərməkdir. Tədiqatda həm siyasi, diplomatik, həm də iqtisadi və humanitar aspektlər nəzərə alınaraq, Türkiyənin çoxvektorlu xarici siyasətinin Asiya və Afrika istiqaməti adı çəkilən təşkilatların rolu prizmasından qiymətləndirilir.

**Tədqiqat**

2000-ci illərin əvvəllərindən etibarən Türkiyə Respublikasının xarici siyasətində əsaslı dəyişikliklər baş vermiş, "problemsiz qonşuluq", "aktiv diplomatiya", "çoxistiqamətli əlaqələr" və "yumşaq güc" kimi strategiyalar daha aktiv hala gəlmişdir. Avropa və ABŞ ağırlıqlı xarici siyasətdə Asiya və Afrika ölkələrinin çəkisi artmağa başlamışdır. Bu dəyişikliklərin səbəbləri elmi ədəbiyyatda, ələlxüsus Türkiyə tarixşünaslığında kifayət qədər geniş araşdırılmışdır (məsələn, bax: Oğurlu, 2017; Tepeciklioğlu, 2019; Yazıcı, 2019; Aydın, 2024, Buyar, 2025 və s.), bu səbədən də onların üzərində geniş dayanmaq kimi bir fikrimiz yoxdur. Lakin belə bir məqamı vurğulamaq istərdik ki, bu siyasətin formalaşmasında adı çəkilən bölgələrin strateji əhəmiyyətinin artması çox önəmli amil olmuşdur.

Son iyirmi ildə Türkiyənin xarici siyasi, iqtisadi və mədəni əlaqələrində Asiya və Afrikanın türk və müsəlman dövlətləri ilə yanaşı, Cənubi Asiya, Sakit okean bölgəsi, Səhraaltı Afrika ölkələri də böyük əhəmiyyət kəsb etməkdədir. Bu mənada Asiya istiqamətində siyasətdə məqsəd yalnız Mərkəzi Asiyanın türk dövlətləri ilə deyil, həm də Cənub-Şərqi Asiya və Cənubi Asiya ölkələri ilə

münasibətləri genişləndirmək olmuşdur. Bu baxımdan “Asiyaya Açılım” strategiyası xüsusi yer tutur. Afrika istiqamətində isə Türkiyənin 2005-ci ili “Afrika İli” elan etməsi, Afrika İttifaqına müşahidəçi, 2008-ci ildə isə strateji tərəfdaş kimi qoşulması mühüm dönüş nöqtələri olmuşdur (Armutlu, 2025, s.230). “Afrika ilə Tərəfdaşlıq” siyasəti çərçivəsində Türkiyə, bu qitədə 40-dan çox səfirlik açmış, ticarət həcmini dəfələrlə artırmış və humanitar yardım mexanizmlərini genişləndirmişdir (Daban, 2021, s.939; Armutlu, 2025, s.236).

Türkiyə Respublikasının istər Asiya, istərsə də Afrika ölkələri ilə əlaqələrin yeni mərhələsində, heç şübhəsiz, beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq əsas mexanizmlərdən biri olaraq çıxış edir. Belə ki, çoxtərəfli platformalar bu münasibətlərə həm diplomatik legitimlik qazandırır, həm də əlaqələrin institusional xarakter almasına şərait yaradır. Bu cür yanaşma, Türkiyənin Asiya və Afrika ölkələri ilə olan münasibətlərini daha sistemli, davamlı və strateji əsasda qurmasına imkan yaradır. Bir məqalə çərçivəsində bütün bu təşkilatların çalışma mexanizmini gözdən keçirmək mümkün olmadığı üçün, biz Türkiyənin Asiya və Afrika ölkələri ilə əlaqəli beynəlxalq və regional platformalara qoşulma xronologiyasını və son illərdəki fəaliyyətinin qısa icmalını vermək istəyirik.

Türkiyənin Asiya ölkələri ilə əlaqələrində ən mühüm mexanizm kimi çıxış edən üzv olduğu və ya tərəfdaş kimi çıxış etdiyi təşkilatlar aşağıdakılardır:

Asiya Birliyi (Asiya Dialoqu) (2002), məqsədi – Asiya ölkələri arasında birlik yaratmaq və əlaqələrin gücləndirilməsi üçün regional təşkilatlara kömək etməkdir. Türkiyə bu təşkilata 2013-cü ildə üzv olmuş, 2019-2020-ci illərdə isə başqanlıq etmişdir (Asya İşbirliği Diyaloğu, 2025).

D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı (1997) – Türkiyənin təşəbbüsü ilə inkişaf etməkdə olan səkkiz ölkə arasında iqtisadi əməkdaşlığı gücləndirmək məqsədilə yaradılmışdır və Asiya və Afrika ilə çoxtərəfli əlaqələrin mühüm mexanizmlərindən biridir. Türkiyə, Azərbaycan, Banqladeş, İndoneziya, İran, Malayziya, Misir, Nigeriya və Pakistanın daxil olduğu bu təşkilat çərçivəsində Türkiyə, üzv ölkələrlə iqtisadi və texnoloji əməkdaşlıq təşəbbüslərini davam etdirir. D-8 həm İslam həmrəyliyi, həm də iqtisadi inkişaf baxımından əhəmiyyətli platformadır. Qeyd edək ki, 2024-cü ilin dekabrında Azərbaycanın təşkilata tam hüquqlu üzv qəbul edilməsi ilə D-8 ilk genişləməsini yaşamışdır (Məhəbbətoğlu, 2024).

İqtisadi Əməkdaşlıq Təşkilatı (1985), məqsədi – üzv ölkələrin iqtisadi rifahının təmin edilməsinə yönəlik ticarəti inkişaf etdirmək, mədəni və tarixi bağları gücləndirməkdir. Türkiyə bu çərçivədə enerji təhlükəsizliyi, nəqliyyat şəbəkələrinin genişləndirilməsi və sərbəst ticarət sahələrinin yaradılması istiqamətində fəal təşəbbüslərlə çıxış edir. İƏT eyni zamanda Türkiyənin Asiyadakı geoiqtisadi nüfuzunu artırmaq üçün istifadə etdiyi mühüm platformalardandır (daha ətraflı bax: Gözelova, 2011, s.87-94). Qeyd edək ki, Təşkilatın 17-ci Zirvə Görüşü 3-4 iyul 2025-ci il tarixlərində Azərbaycanın Xankəndi şəhərində keçirilmişdir və istər bölgənin, istərsə də təşkilatın gələcək perspektivləri baxımından böyük tarixi əhəmiyyətə malikdir (Əliyeva, 2025, s.4; Musayeva, 2025, s.6).

İslam Əməkdaşlıq Təşkilatı (1969), məqsədi – üzv dövlətlər arasında əməkdaşlığı genişləndirmək, İslam dünyasının hüquqlarının qorunmasını təmin etməkdir. Türkiyə Respublikası təşkilata qurulduğu ildən etibarən üzv olub, 2025-ci ilin iyunundan Xarici İşlər Nazirlikləri Konseyinin başqanlığını yürütməkdədir (İİT, 2025).

Türk Dövlətləri Təşkilatı (2009), 3 oktyabr 2009-cu ildə Naxçıvanda Azərbaycan, Türkiyə, Qazaxıstan və Türkiyə arasında imzalanan müqavilə əsasında Türkdilli Ölkələrin Əməkdaşlıq Şurası adı altında qurulmuşdur, 12 noyabr 2021-ci il İstanbul Zirvə görüşündə Türk Dövlətləri Təşkilatı olaraq yenilənmişdir. Məqsədi – türk dövlətləri arasında qarşılıqlı etibarın gücləndirilməsi, siyasi dəstəyin artırılması, iqtisadi və texniki əməkdaşlığın genişləndirilməsi, Türk dünyasının tarixi və mədəni irsinin qorunması və təbliği sahəsində əməkdaşlığın həyata keçirilməsidir (TDT, 2025). TDT türkdilli ölkələrin inteqrasiyasını təşviq edən və Türkiyənin Mərkəzi Asiya ilə siyasi, iqtisadi və mədəni əlaqələrini gücləndirən əsas regional təşkilatlardandır. Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Özbəkistan kimi üzv dövlətlərlə birlikdə Türkiyə, bu platforma vasitəsilə həm siyasi dialoqu intensivləşdirir, həm də ortaq enerji, nəqliyyat, təhsil və təhlükəsizlik layihələrini reallaşdırır.

Cənub-Şərqi Asiya ölkələri ilə münasibətlər çərçivəsində Türkiyə, ASEAN ilə 2017-ci ildən tərəfdaşlıq səviyyəsində əməkdaşlıq həyata keçirir. İndoneziya, Malayziya, Tailand kimi ölkələrlə

ticarət, turizm, müdafiə sənayesi və təhsil sahəsində artan əlaqələr müşahidə olunur. Türkiyənin ASEAN-a dialoq tərəfdaşı statusu alması isə bu platformadakı rolunun yaxın gələcəkdə daha da artacağından xəbər verir.

Türkiyə enerji resurslarına malik və ya enerji nəqli yolları üzərində yerləşən ölkələrlə münasibətlərə də xüsusi önəm verir. Mərkəzi Asiya və Yaxın Şərq ölkələri ilə enerji əməkdaşlığı, "Transxəzər qaz boru kəməri", TANAP və digər layihələr bu baxımdan əhəmiyyətlidir. Regional təşkilatlar bu cür layihələrin hüquqi və diplomatik müstəvidə reallaşdırılması üçün zəruri platformalar təmin edir. Digər tərəfdən, Afrika ölkələri ilə əməkdaşlıq çərçivəsində Türkiyə kənd təsərrüfatı, tikinti, səhiyyə və nəqliyyat sahələrinə investisiya yatırır. Bu sahələrdə regional razılaşmalar və ortaq forumlar vasitəsilə yerli bazarlara çıxış asanlaşdırılır.

Afrika qitəsi ölkələri ilə əlaqələrdə önəmli beynəlxalq və regional platformalar haqqında məlumat verməzdən öncə, qeyd etməliyik ki, Türkiyə 2000-ci illərin ortalarından etibarən Afrika qitəsində mövcudluğunu gücləndirməyə başlamış, bu istiqamətdə həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlıq mexanizmlərini inkişaf etdirmişdir. Türkiyənin Afrika ilə əməkdaşlıq siyasətində regional təşkilatlarla qurulan əlaqələr mühüm yer tutur. Bu, diplomatik nüfuzun artırılması ilə yanaşı, siyasi sabitlik, ticarət və humanitar yardım kimi sahələrdə də ciddi təsir göstərir. Bu təşkilatlardan biri – Afrika İttifaqıdır.

Afrika İttifaqı (1963), məqsədi – Afrikada siyasi, sosial və iqtisadi vəhdətin təmin edilməsi, sülhün və təhlükəsizliyin qorunması, demokratik idarəçiliyin mənimsənilməsidir. Türkiyə təşkilata müşahidəçi qismində 2005-ci ildə qoşulmuş, 2008-ci ildən strateji tərəfdaş kimi çıxış etməkdədir. Qeyd edək ki, bu status çərçivəsində hər üç ildən bir Afrika-Türkiyə sammitləri keçirilir və bu sammitlərdə tərəflər arasında investisiya, kənd təsərrüfatı, infrastruktur və səhiyyə sahələrində əməkdaşlıq razılaşmaları imzalanır. Türkiyənin Afrika İttifaqı ilə əlaqələri, qitə miqyasında daha geniş və təsirli əməkdaşlıq imkanları yaradır (Afrika Birliği, 2025; Türkiye-Afrika ilişkileri, 2025).

Qərbi Afrika İqtisadi Şurası (1975), məqsədi – üzv ölkələrin rifahının yüksəldilməsi, bölgə daxilində əməkdaşlığın genişləndirilməsi, ortaq gömrüklərin tətbiqini nəzərdə tutan ortaq bazarın formalaşdırılmasıdır. Türkiyə 2005-ci ildən Şurada müşahidəçi qismində iştirak edir. Türkiyə ilə Qərbi Afrika İqtisadi Şurası arasında ticari və iqtisadi əlaqələrin inkişafı məqsədilə 2018-ci ilin fevralında İstanbulda "Türkiyə - ECOWAS İqtisadi Forumu" keçirilmiş, "Türkiyə - ECOWAS Ticarət və Sərmayə Əməkdaşlığı Müqaviləsi" imzalanmışdır (ECOWAS, 2025).

Şərqi Afrika Şurası (2000), məqsədi – Şərqi Afrika siyasi konfederasiyasını qurmaq olub, bu yolda gömrük birliyi, ortaq bazar, vahid pul sisteminin yaradılmasını nəzərdə tutmuşdur. Türkiyə 2015-ci ildən Şurada müşahidəçi qismində iştirak edir (EAC, 2025).

Bu təşkilatlardan əlavə, Türkiyənin Asiya və Afrika qitəsi ölkələri ilə ikitərəfli əlaqələri də son iki onillikdə intensiv şəkil amışdır və istər Türkiyənin ortaq olaraq bu ölkələrə verdiyi fürsətləri, istərsə də adı çəkilən bölgələrin Türkiyə üçün strateji əhəmiyyətini göstərən əhəmiyyətli amillərdir.

## Nəticə

Nəzərdən keçirdiyimiz icmaldan da görünür ki, beynəlxalq və regional təşkilatlarda fəal iştirak Türkiyəyə yalnız iqtisadi deyil, həm də diplomatik üstünlüklər qazandırır. Bu platformalarda liderlik təşəbbüsləri vasitəsilə Türkiyə həmrəyliyi təşviq edir, beynəlxalq məsələlərdə dəstək toplayır və qlobal səviyyədə öz təsir imkanlarını artırır.

Eyni zamanda, Afrika və Asiya ölkələri ilə strateji tərəfdaşlıqların qurulması – xüsusilə müdafiə sənayesi, texnologiya transferi və təhsil sahəsində – Türkiyənin uzunmüddətli xarici siyasət hədəfləri ilə üst-üstə düşür.

Müasir dövrdə Türkiyənin Asiya və Afrika ölkələri ilə münasibətlərində regional təşkilatların rolu təkcə diplomatik və iqtisadi vasitə olaraq deyil, həm də strateji alət kimi nəzərdən keçirilir. Bu qurumlar çərçivəsində qurulan əməkdaşlıqlar sayəsində Türkiyə, qarşılıqlı etimada əsaslanan tərəfdaşlıqlar yarada, yumşaq gücünü genişləndirə və beynəlxalq arenada daha balanslı mövqe tuta bilməkdədir. Regional təşkilatlar həm institusional əlaqələrə zəmin yaradır, həm də çoxtərəfli diplomatiya vasitəsilə Türkiyəyə yeni imkanlar açır. Türkiyənin son illərdə yürütdüyü çoxşaxəli və çevik

xarici siyasət modeli göstərir ki, regional təşkilatlarla inteqrasiyanın gücləndirilməsi, qlobal mövqelərin möhkəmləndirilməsi üçün mühüm addımdır. Geosiyasi baxımdan körpü ölkə kimi çıxış edən Türkiyə, gələcəkdə də Asiya və Afrika bölgələrində mühüm aktor kimi qalmaq potensialına sahibdir.

## Ədəbiyyat


1. *Afrika Birliği*. (2025, avqust 8). [Afrika birliyi haqqında məlumat]. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. https://www.mfa.gov.tr/afrika-birligi.tr.mfa
2. Armutlu, A. (2025). Konstrüktivist perspektiften Türkiye Afrika ülkeleri ilişkilerinin dönüşümü: tarihsel arka plan, politik ve ekonomik gelecek perspektifleri. *Akademik İzdüşüm Dergisi,* 10 (1), 222-254.
3. *Asya İşbirliği Diyaloğu.* (2025, avqust 9). [Asya İşbirliği Dialoqu haqqında məlumat]. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. https://www.mfa.gov.tr/aid.tr.mfa
4. Aydın, F. (2024). *Asya'nın üç gücü.* Ötüken.
5. Buyar, C. (2025, avqust 8). *Yükselen bir değer olarak Asya ve Türkiye'nin rolü.* Anadolu Ajansı. https://www.aa.com.tr/tr/analiz/yukselen-bir-deger-olarak-asya-ve-turkiye-nin-rolu/2208459
6. Daban, C. (2021). 21. Yüzyılda Türkiye'nin Afrika ülkeleri ile siyasi ve diplomatik ilişkileri. *ASBİ Abant Sosyal Bilimler Dergisi,* 21(3), 925-944.
7. East African Community (EAC). (2025, avqust 11). [Şərqi Afrika Topluluğu haqqında məlumat]. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. https://www.mfa.gov.tr/dogu-afrika-toplulugu.tr.mfa
8. Economic Community of West African States (ECOWAS). (2025, avqust 11). [Qərbi Afrika Dövlətləri İqtisadi Birliyi haqqında məlumat]. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. https://www.mfa.gov.tr/ecowas.tr.mfa
9. Əliyeva, İ. (2025, iyul 16). Dünyanın nəbzinin döyündüyü bölgə. *Azərbaycan qəzeti,* (144), 4.
10. Gözelova, Y. (2011). Avrasya Bölgesel Entegrasyonunda Türk Dünyasının Perspektifleri (ECO Örneğinde). *Turan Stratejik Araştırmalar Merkezi Dergisi.* 3(12), 87-94.
11. İslam İşbirliği Teşkilatı (İİT). (2025, avqust 11). [İslam Əməkdaşlıq Təşkilatı haqqında məlumat]. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. https://www.mfa.gov.tr/islam-isbirligi-teskilati.tr.mfa
12. Məhəbbətoğlu, Q. (2024, dekabr 20). Növbəti diplomatik uğur və Azərbaycanın artan beynəlxalq nüfuzunun göstəricisi – D-8-ə üzvlük. *İki sahil qəzeti,* (235), 5.
13. Musayeva, Y. (2025, iyul 9). Xankəndi Kommünikesi ECO-nun gələcək inkişafının yol xəritəsi oldu. *Azərbaycan qəzeti,* (138), 6.
14. Oğurlu, E. (2017). Türk dış politikasında Afrika açılımı. *Siyaset, Ekonomi ve Yönetim Araştırmaları Dergisi,* 5 (5), 47-62. https://doi.org/10.25272/j.2147-7035.2017.5.5.05
15. *Türk Devletleri Teşkilatı (TDT).* (2025, avqust 11). [Türk Dövlətləri Təşkilatı haqqında məlumat]. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. https://www.mfa.gov.tr/turk-devletleri-teskilati.tr.mfa
16. Tepeciklioğlu, E. (2019). *Türk dış politikasında Afrika: temel dinamikler, fırsatlar ve engeller*. Nobel Yayınları.
17. *Türkiye-Afrika ilişkileri.* (2025, avqust 8). [Türkiyə - Afrika əlaqələri haqqında məlumat]. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. https://www.mfa.gov.tr/turkiye-afrika-iliskileri.tr.mfa (müraciət tarixi: 08.08.2025).
18. Yazıcı, S. (2019). *Yeniden Asya.* Bilge Devlet Yayınları.


Daxil oldu: 04.05.2025
Qəbul edildi: 16.08.2025